## 21. BAŞLIQ

**Başlıq yazın.** Xəbər məqaləsinin başlığı gərək dərhal «nə baş verib», «xəbər nədir», «nə olsun», «niyə bu xəbər vacibdir» suallarına cavab versin. Başlığın məzmunu böyük ehtimal lidin məzmunu ilə kəsişə bilər. Lakin başlıq lidin ifadələrini təkrar etməməlidir. Başlıqla lidi uzlaşdırmaq üçün siz lidi yenidən redaktə etməli ola bilərsiz.

[Nümunə] **Məişət tullantıları zavodunu Yenikənddə tikəcəklər**
[və ya] **İcra başçısı: Məişət tullantıları zavodunu Yenikənddə tikəcəklər**

Zavodun tikintisi üçün Məmmədli kəndinin ərazisi müəyyən olunub, fevralın 15-də icra başçısı Həsən Məmmədov Nərimanabad sakinləri ilə görüşdə belə deyib. Onun sözlərinə görə, həmin ərazidə bağ sahələri olsa da, ərazi zavod üçün yeganə münasib yerdir.

***«Məişət tullantıları zavodu» əvəzinə sadəcə «zavod» yazırıq, çünki başlıqda «məişət tullantıları zavodu işlətmişik».***